# Respublika günü qeyd edildi

## Gəncə

Azərbaycan Dövlət Aqrar Universitetində 28 may – Respublika Gününə həsr olunan “Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir” adlı geniş tədbir keçirilmişdir.

Tədbiri universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov açaraq qeyd etdi ki, 1918-ci il may ayının 28-də Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti yarandı. “İstiqlal bəyannaməsi”ndə Azərbaycanın müstəqil dövlət olduğu elan edildi və Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində yaranmış ilk parlamentli respublika oldu. Təəssüf ki, onun ömrü cəmi 23 ay davam etdi. Azərbaycan 1991-ci ildə ikinci dəfə müstəqilliyinə qovuşdu. Lakin müstəqilliyimizin ilk illərindəki hərc-mərclik, səriştəsizlik və xalqımızın maraqlarına zidd siyasət, iqtisadiyyatın zəiflədilməsi və milli sərvətlərin talan edilməsi ölkəni dərin siyasi və iqtisadi-sosial böhrana apardı. Yalnız 1993-cü il əbədiyaşar Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışı xalqı vətəndaş müharibəsi təhlükəsindən xilas etdi, separatçılıq meyillərə son qoyuldu, dövlət quruculuğu siyasətinin gerçəkləşməsinə gətirib çıxardı. Bu gün ulu öndər Heydər Əliyevin ideyalarını layiqincə davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasətin nəticəsində Azərbaycan dövləti dünyanın lider dövlətləri cərgəsinə qoşulub.

Universitetin prorektoru A. Qasımova, ictimai elmlər və multikulturalizm kafedrasının müdiri, dosent A. Bayramov, həmin kafedranın müəllimləri-dosent N.Əlizadə, baş müəllim S.Qasımova, müəllim S.Abdullayeva, III kurs tələbəsi G.İbrahimova 1918-1920-ci illərdə iqtisadi, siyasi və mədəni sahədə qəbul edilən qanunlar haqqında geniş məruzə ilə çıxış etdilər.

## Naftalan

Naftalan Şəhər İcra Hakimiyyətində 28 may – Respublika Gününə həsr edilmiş ümumşəhər tədbiri keçirilmişdir.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Natiq Aslanov çıxışında bildirdi ki, 1918-ci il mayın 28-də müsəlman Şərqində demokratik və ümumbəşəri dəyərlərə söykənən ilk Respublika — Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi 23 ay



ömür sürməsinə baxmayaraq, çox şərəfli və mürəkkəb bir yol keçmişdir.

Bu gün Azərbaycanda gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi, o cümlədən dinamik sosial-iqtisadi inkişaf əsası 98 il əvvəl qoyulmuş dövlət müstəqilliyinin bəhrəsidir. Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident cənab İlham Əliyev tərəfindən həyata keçirilən inkişaf strategiyası Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsinə, dövlətimizin qüdrətinin artırılmasına xidmət edir.

Şəhər 2 nömrəli tam orta məktəbin tarix müəllimi Sədrəddin Muradov çıxış edərək bildirdi ki, müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin - Əlimərdan bəy Topçubaşovun, Məhəmməd Əmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinskinin və başqalarının böyük xidmətləri olmuşdur. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan yeni inkişaf yoluna qədəm qoydu. Böyük öndərin bacarığı sayəsində ölkəmiz mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumağı və möhkəmləndirməyi bacardı. Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər qürur doğurur.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**

## Şirvan

Şirvan şəhərində əsl bayram əhval-ruhiyyəsi hiss olunurdu. Şəhər sakinləri 28 may – Respublika Gününü bayram edirdilər. Tədbir şəhər Mədəniyyət Evində keçirildi. Bayram ərəfəsində Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən “Şöhrət” ordeni ilə təltif olunmuş Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov tədbiri giriş sözü ilə açaraq dövlət başçımızın yüksək etimadını Şirvan sakinlərinə qayğı və diqqətin bariz nümunəsi adlandırdı. İcra başçısı müsəlman Şərqində ilk demokratik respublikanın 1918-ci ildə Azərbaycanda yaradıldığını bildirdi:

– Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtması ilə müstəqil dövlət quruculuğunda yeni dövr başladı. Əsası ulu öndər tərəfindən qoyulmuş, hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasət nəticəsində ölkəmiz beynəlxalq aləmdə tanınmış ölkələrdən birinə çevrilmişdir. Respublikamız dinamik inkişaf yolundadır. Şirvan şəhəri bu inkişafa ən yaxşı nümunədir.

Şəhər icra hakimiyyəti başçısının birinci müavini Samid Abıyev, şəhər prokuroru Həsən Hənifəyev Azərbaycan Xalq Cümhuriyyətinin 98-ci ildönümü — Respublika Günü münasibəti ilə şəhər sakinlərini təbrik edib onlara şəxsi həyatda və əməkdə uğurlar arzuladılar.

Şəhər 13 saylı məktəbin şagirdləri tərəfindən hazırlanmış ədəbi-bədii kompozisiya maraqla qarşılandı. Tədbir respublika incəsənət ustalarının bayram konserti ilə davam etdirildi.

**Tofiq HÜSEYN,**
**“Respublika”.**